*(Əvvəli ötən sayımızda)*

# BAYATI OVQATLI DUYĞULAR

Şair Hikmət Mahmud da bayatı ovqatı ilə ruhunu sarmış düşüncələri oxucuları ilə asanlıqla bölüşə bilir. Ona görə də bu ovqatda yazdığı şeirləri oxucu el bayatılarının şirinliyi ilə qəbul edir. Və biz şairin lirik qəhrəman obrazında özünü də asanlıqla görə bilirik. “Bəllidir” adını verdiyi bayatı ovqatlı şeirinin elə birinci bəndindəncə öz obyektivində yüngülməcaz adamları görür.

Onlara müraciətlə təmkini qorumağın üstün tərəflərini yada salır. Asta danışmaq, astadan danışmaq, başqalarına hörmətlə yanaşmaq insanın üstün keyfiyyətidir. Şair də insanlara elə bunu demək istəyir:

Söz deyəndə küyləmə,
Qalxma zilə, düş bəmə.
Sözü elə danış ki,
Yayılmasın aləmə.

Çalış hər vaxt az danış,
Sərrast danış, düz danış.
Sözü səpmə hər yana,
Nə danışsan düz danış.

Bir sözlə, bayatı ovqatlı bəndlərdə sanki Nizaminin “az danışmağın gözəlliyi” düsturunu görürük. Qızışıb çox danışan adam pulunun çoxluğundan qürrələnib onu hara gəldi səpənlərə bənzəyir. Odur ki, düz danışmaq, az danışmaq nitqin gözəlliyini təmin etdiyi kimi natiqin də qabiliyyətindən, böyüklüyündən xəbər verir.

Hikmət Mahmud bütün yaradıcılığı boyu gözəlliyi vəsf edib. Mənən zəngin olan gözəli tərənnüm etməkdən yorulmayıb. O bir gözələ baxmaqla, onun kimliyini görə bilir. Mənən hansı mərtəbədə olduğunu duyur. Bu zaman o, istəsə də, istəməsə də könül aləmi odlara tutaşır. Tutaşmaq sözünü odlanmaq, alovlanmaq mənasında işlədir, özü də yerində işlədir:

Sel gəldi daşdı getdi,
Dağ, dərə aşdı getdi.
Göz baxdı bir gözələ,
Könül tutaşdı getdi.

Şəxsiyyəti qorumaq, şəxsiyyətə dəyər vermək səxsin mənəvi ucalığıdır. El arasında yaltaq, yarınan adamlar haqqında deyərlər ki, “o, mis məftil kimi əyilir”, yəni qürurunu qoruyan deyil, başqa sözlə, şəxsiyyəti yoxdur:

Hər gələnə əyilmə,
Hər gülənə söz demə.
Bişməmiş, bişirməmiş
Sözü yayma aləmə.

Şəxsiyyəti olan, mənəviyyatını uca tutan, qürurunu qoruyan hər kəs həqiqi olmayan, əsası olmayan sözü doğru kimi yaymaz. Düşünər ki, kimsə qabağa durub ondan soruşar: bu dediyinin əsası varmı? Az-çox özünə hörmət edən hər kəs dediyi sözün sahibi olmağı bacarmalıdır.

Təəssüf ki, son vaxtlar kapital hakimiyyəti insanların ruhuna, varlığına hakim olur, onları idarə edən vasitəyə çevrilir. Belə məqamları müşahidə etmək şair üçün ağırdır. Amma hər halda göz gördüyündən qaça bilmir. Və şairin də gördükləri onun ruhunda, varlığında belə əks-səda verir.

Söz deyəndə gözə bax.
Böyük deyən sözə bax.
Sahmanlanıb çıxanda,
Gözəllərdə naza bax.

Yalan-palan dəbdədi,
İnsan min sifətdədi.
Hörmət, qayğı, vəzifə...
İndi dolu cibdədi.

Get dünyanı dolan, gəz,
Yay aləmə min bir səs.
Heç bir varlıq heç bir şey,
Pulu əvəz eyləməz.

Şair yaşının indiki çağında müşahidə etdiyi aləmi öz rəngi ilə sözə gətirir. Nəhayət, sözünün sonunda ailəni dünya evi kimi görür və gördüyünü özünəməxsus müdrikliklə mənalandırır.

Hikmət Mahmud klassik Azərbaycan ailəsi ənənəsini görmüş və bu tip ailədə böyümüşdür. Onun doğulub-böyüdüyü ailədə ananın da, atanın da ayrıca yeri var. Görünür, yaddaşı boyu özünün doğulub-böyüdüyü ailə tipini daha üstün görüb. Belə ailələrdə atanın kimliyi, ananın kimliyi aydın görünür. Və uşaqların tərbiyəsində mühüm əhəmiyyət kəsb edir:

Evin memarı ana.
Süd verib övladına.
Yaradansa atadır
Bu, bəllidir cahana.

Hikmət Mahmudun bayatı ovqatlı şeirlərinə qismən də olsa, münasibət bildirdik. Bizi sevindirən odur ki, şairin bəsirət gözü həmişəki kimi yenə açıqdır. İlham keşməsi qaynardır və bu keşmə yenə də çağlamaqdadır.

***Əli Rza XƏLƏFLİ***
***28.10.2020***